

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 166 (20.820)

*6 sentyabr 2013-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də respublikamızın cənub bölgəsinə səfəri çərçivəsində Astara rayonuna gəlmişdir.

Dövlətimizin başçısı əvvəlcə Astara şəhərinin mərkəzində ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoydu.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də əsaslı şəkildə yenidən qurulmuş Astara Rayon Mərkəzi Xəstəxanasında yaradılmış şəraitlə tanış olmuşdur.

* * *

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev sentyabrın 4-də Dövlət Sərhəd Xidmətinin Lənkəran sərhəd dəstəsinin "Astara" dövlət sərhədindən buraxılış məntəqəsinin, sərhəd komendantlığının və sərhəd zastavasının şəxsi heyəti üçün yeni inşa olunan yaşayış şəhərciyi, həmçinin sərhəd komendantlığı və sərhəd zastavasının əsaslı təmir olunmuş xidməti binalar kompleksinin açılışında iştirak etmişdir.

* * *

Sentyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gilan İdman Klubu tərəfindən Astaranın Ərçivan qəsəbəsində inşa edilmiş Boks Mərkəzinin, Ərçivan-Şuvi-Alaşa-Qapıçıməhəllə avtomobil yolunun açılışlarında da iştirak etmişdir.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev respublikamızın cənub bölgəsinə səfəri çərçivəsində sentyabrın 5-də Lənkəran şəhərinə gəlmiş, bir sıra sosial obyektlərin açılışlarında iştirak etmişdir.



## Daha iki obyektin inşası başa çatmaq üzrədir

Bu gün üçrəngli bayrağımız Naxçıvan şəhərinin ən hündür nöqtəsində, Pişəvəri küçəsində salınan Bayraq Meydanında dalğalanır. 2011-ci ildən "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən tikilən meydanda ilkin mərhələdə 5 hektardan artıq ərazidə genişmiqyaslı torpaq işləri aparılıb, bayraq gövdəsinin ətrafında səkkizguşəli bina tikilib, 53 metrlik bayraq sütunu ucaldılıb. Bayraq Muzeyi üçün inşa olunan binanın ətrafı səkkizguşəli ulduzu birləşdirən klassik üslublu sütunlarla bəzədilib, yerə üzlük mərmər və qranit lövhələr döşənib. Hazırda muzey binasında dizayn işləri aparılır, ətrafda abadlıq işləri görülür, işıqlandırma sistemləri quraşdırılır. Obyektdə əsas tikinti işləri, demək olar ki, yekunlaşdırılıb.

Bayraq Meydanının yaxınlığında salınan Fəxri Xiyabanda da işlər sürətlə davam etdirilir. Burada ilkin mərhələdə genişmiqyaslı torpaq işləri aparılıb, 10-dan çox terras yaradılıb. Əraziyə daş düzülüb, yaşıllıq zolaqları üçün ərazilər ayrılıb, işıqlandırma sistemi quraşdırılıb. Fəxri Xiyabanın giriş qapısında və inzibati hissəsində isə işlər yekunlaşdırılıb, müasir işıqlandırma sistemləri qurulub. Möhtəşəm görüntüsü olan xiyabanın girişində daşoyma üsulu ilə hazırlanmış, gül və yarpaq ornamentləri ilə bəzədilmiş tağlar, qövsvari və nəbati elementlərlə bəzədilən dəmir şəbəkəbənd formasında qapılar salınıb. Ümumiyyətlə, burada aparılan genişmiqyaslı tikinti-quraşdırma tədbirləri şəhərimizin bu hissəsini də yeni görünüşə, əzəmətə qovuşdurub. Tikinti işlərinin sürətlə aparılması və inşaatçıların əzmkarlığı göstərməsi belə deməyə əsas verir ki, hər iki obyekt yaxın vaxtlarda istifadəyə hazır olacaq.

## Naxçıvanda növbəti təhsil yarmarkası keçirilmişdir

Sentyabrın 5-də Naxçıvan şəhərindəki 7 nömrəli tam orta məktəbdə təhsil yarmarkası keçirilmişdir.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev açaraq bildirmişdir ki, təhsil sahəsində aparılan islahatlar xalqımızın ümummilli lideri Heydər Əliyevin böyük və əvəzsiz xidmətlərinin nəticəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə artıq hər il keçirilən təhsil yarmarkaları təhsilin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Belə ki, bu müddət ərzində ucqar dağ kəndlərində yüzlərlə gənc kadr müəllim kimi fəaliyyətə başlamış, ümumtəhsil məktəbləri ixtisaslı kadrlarla təmin olunmuş, şagirdlərimiz onların sayəsində elmi biliklərə daha dərindən yiyələnmişlər. Məktəblərimizin gənc kadrlarla təmin edilməsi nəticəsində muxtar respublika üzrə məzunları ali təhsil müəssisələrinə qəbuldan kənarda qalan məktəb yoxdur və yüksək balla qəbul olunanların sayı ilbəil artır.





Vurğulanmışdır ki, ali təhsil almış gənclərə təyinatların verilməsi, onlara 3 il müddətində kommunal xərclərini ödəmək üçün 40 manat, rayon mərkəzindən 20 kilometrdən artıq məsafədə yerləşən ümumtəhsil müəssisələrində əmək fəaliyyətinə başlayan gənc müəllimlərə isə eyni müddət ərzində hər ay 110 manat məbləğində əlavə vəsait ödənilməsi təhsilin inkişafına, tədrisin keyfiyyətinin yüksəldilməsinə və nəhayət, kadr təminatının yaxşılaşdırılmasına xidmət edir. Eyni zamanda iş yerlərinə göndəriş almış gənc mütəxəssislərə yol xərci, ilkin yaşayış şəraitinin yaradılması məqsədilə əməkhaqqının 2 misli həcmində birdəfəlik yardım ödənilir. Son illərdə ali təhsil ocaqlarının məzunlarına təyinatların verilməsi, ən ucqar kəndlərdə belə, ehtiyac duyulan ixtisaslı kadrların yerləşdirilməsi diqqətdə saxlanılır ki, bu da məzunların sevincinə səbəb olur.

Qeyd olunmuşdur ki, muxtar respublikanın ümumtəhsil məktəblərində boş yerlər müəyyənləşdirilmiş və ayrı-ayrı təhsil sahələri üzrə boş iş yerlərinin uçotu aparılmış, rayon (şəhər) təhsil şöbələri üzrə mövcud boş yerlər "Şərq qapısı" qəzetində elan edilmişdir. Müəyyənləşdirilmişdir ki, muxtar respublikanın orta təhsil müəssisələrində 22 Azərbaycan dili və ədəbiyyat, 51 xarici dil, 33 riyaziyyat, 25 informatika, 31 tarix, 53 coğrafiya, 28 fizika, 37 kimya, 38 biologiya, 48 ibtidai sinif müəlliminə ehtiyac vardır.

İnanırıq ki, keçirilən bu təhsil yarmarkası öz səmərəli bəhrəsini verəcək, məktəblərimiz gənc kadrlarla təmin olunacaqdır.

İşaxtaran Gülnar Məmmədova belə yarmarkaların keçirilməsini əhəmiyyətli hadisə kimi dəyərləndirmiş, muxtar respublikada gənc təhsil işçilərinə göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirmişdir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov demişdir ki, muxtar respublikada keçirilən əmək yarmarkaları əhalinin məşğulluq problemlərinin həll edilməsində, nəticə etibarilə, onların sosial rifahının yaxşılaşdırılmasında əhəmiyyətli rol oynayır. Bir neçə ildir ki, keçirilən təhsil yarmarkaları da bu sosial tədbirlərin davamıdır. Təhsil müəssisələrinin ixtisaslı kadrlarla təminatında mühüm rol oynayan, ali təhsilini başa vurub ixtisasına uyğun işaxtaran gənclərin bu probleminin həllində çevik vasitə olan həmin tədbirlərdə hər il onlarla insan özünə daimi iş yeri tapır. Ona görə də təhsil yarmarkalarının keçirilməsi qarşıdakı illərdə də davam etdiriləcəkdir.

Sonra yarmarkaya gələnlərə 405 boş iş yeri təqdim olunmuş, 140 nəfərə işə göndəriş verilmişdir.

*Kəngərli Rayon İcra Hakimiyyətində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən tədbiri giriş sözü ilə İcra Hakimiyyətinin başçısı Ramiz Cəfərov açıb.*

## Payız-qış mövsümündə heç bir problem olmayacaq



İcra başçısı müzakirə olunan məsələ ilə bağlı məruzə edərək bildirib ki, son illərdə əhalinin rahat yaşayışının təmin olunması üçün mühüm tədbirlər həyata keçirilib, yerlərdə kommunal xidmətlərin keyfiyyəti artırılıb, əhalinin çətinlik çəkmədən normal şəraitdə yaşaması ön plana çəkilib.

Bu cür şəraitin payız-qış mövsümündə də yaradılması və qış aylarına hazırlıq günümüzün ən zəruri məsələlərindən birinə çevrilib. Bu məqsədlə avqustun 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2013-2014-cü ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilib, müşavirədə yeni mövsümə hazırlıqla bağlı rayonda bir sıra işlərin görülməsi üçün tapşırıqlar verilib. Verilmiş tapşırıqların icrasının təmin olunması və rayon ərazisində payız-qış mövsümünə hazırlıqla əlaqədar təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinə ehtiyac var.

Qeyd olunub ki, rayonda elektrik, rabitə, qaz təsərrüfatı və digər xidmət sahələrinin vəziyyətinin araşdırılması ilə bağlı rayon İcra Hakimiyyətində yaradılmış komissiya tərəfindən yoxlamalar aparılıb, nöqsanlar və çatışmazlıqlar aidiyyəti təşkilatların diqqətinə çatdırılıb. Çatışmazlıqların aradan qaldırılması üçün müəyyən işlər görülüb. Bu işlər hazırda davam etdirilməkdədir.

Bildirilib ki, görülən işlərə baxmayaraq, bu sahədə bir sıra çatışmazlıqlar da mövcuddur. Onların həlli üçün müvafiq tədbirlər həyata keçirilir. Əhalinin və təsərrüfat subyektlərinin enerjiyə və istiliyə olan tələbatının ödənilməsi, eləcə də digər infrastruktur sahələrinin qış mövsümündə normal fəaliyyət göstərməsi üçün hazırlıq işlərinin keyfiyyətlə görülməsi, lazımi mal-material ehtiyatının yaradılması diqqətdə saxlanılır.

Sonra məruzə ətrafında rayon Elektrik Şəbəkəsinin direktoru İsmixan Nağıyevin, Qaz İstismarı İdarəsinin rəisi Zaur Məhərrəmovun, Təhsil Şöbəsinin əməkdaşı Yusif İmanovun çıxışları olub.

**Xəbərlər şöbəsi**



Naxçıvan-Culfa magistral avtomobil yolu

# Müasir yol şəbəkəsi yüksəlişdən xəbər verir

Yol mədəniyyətdir. Hamımızın tez-tez eşitdiyimiz iki sözdən ibarət olan bu cümlə özündə sadə, sadə olduğu qədər də mürəkkəb bir mənanı ehtiva edir. Müasir anlamda səliqəli, rahat yollar bir ölkənin inkişafını, tərəqqisini göstərən əsas amillərdən biri hesab olunur. Elə ölkə ilə ilk tanışlığa, müxtəlif tarixi və mədəni abidələrlə, mədəni mərkəzlərlə tanışlığa da yol, sözün əsl mənasında, yollardan keçir. Bu, “Yol mədəniyyətdir” cümləsinin dar çərçivədə izahıdır. Cümlənin geniş mənada izahı isə daha dərin tarixi-kulturoloji məna kəsb edir. Buradakı “mədəniyyət” sözü sivilizasiya – mədəni sistem kimi xarakterizə olunur. Çünki yaranışının bəşər tarixindən də qədim olduğu söylənilən yollar məhz bəşər sivilizasiyasının ilk mərkəzlərində formalaşmışdı. Yolların yaranma tarixindən danışan tədqiqatçılar hesab edirlər ki, bu tarix öz başlanğıcını yer üzərində yaşayan bütün canlıların hərəkət zamanı buraxdığı izlərdən götürmüşdür. Belə ki, vəhşi heyvanların sürü halında bir yerdən digər yerə – çaylara, otlaqlara getmələri nəticəsində yaranan izlər uzun müddət tapdandıqdan sonra cığır (yol) halına düşmüşdür. Nəticədə, geniş sahəni əhatə edən cığırlar yaranmışdır ki, bunlar da çox minilliklərdən sonra təbii yol vəziyyətinə düşmüşlər. Ən qədim insanın ilk yolu isə onun sığındığı təbii sığınacaqlara getmək üçün keçdiyi ərazi olmuşdur. Nəzərə alsaq ki, ölkəmizin ərazisində ilk insan dəstələrinin əmələ gəlməsi təqribən 1,5-1,7 milyon il əvvələ təsadüf edir, Azərbaycanda yol tarixinin başlanğıcını da elə bu dövrdən götürmək olar.

Azərbaycanda insanların məskunlaşdıqları ən qədim ərazilərdən biri hesab edilən Naxçıvan tarixən ən mühüm ticarət yolları üzərində yerləşən bir ərazi olmuşdur. Dünyanın mühüm yollarından biri və bəlkə də, birincisi hesab edilən qədim İpək Yolunun əsas qollarından biri Naxçıvan ərazisindən keçmiş, bu yol Şərq və Qərb arasında əlaqəni təmin etmişdir. Elə buna görə də bütün qədim və orta əsrlər boyunca idarəetmə formasından asılı olmayaraq, dövlət qurumları yolların salınmasına, artırılmasına həmişə ciddi yanaşmış, hakimiyyətin möhkəmlənməsində, yeni ərazilərin ələ keçirilməsində və yaşayış məntəqələrinin yaradılmasında yol amilini yüksək dəyərləndirmişlər. Naxçıvan ərazisində bu gün də qalıqları mövcud olan karvansaralar (Culfa Karvansarası, Fərhad evi və sair), körpülər (Sınıq körpü, “Ziyaülmülk” körpüsü, Qazançı körpüsü, Daş körpü və sair), xanəgahlar bu ərazilərdən keçən yolların necə hərəkətli və vacib əhəmiyyətli olduğunu sübut edir. Təsadüfi deyildir ki, Naxçıvan ərazisindən keçən yollar haqqında orta əsr ərəb coğrafiyaşünas-səyyahlarının əsərlərində də zəngin məlumatlar vardır.

Strateji əhəmiyyətini sonrakı dövrlərdə də saxlayan Naxçıvan uğrunda XV-XVII əsrlərdə aparılan mübarizənin əsas səbəbi də iqtisadi baxımdan vacib olan ticarət yollarının ələ keçirilməsi ilə bağlı olmuşdur. Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra, xüsusilə ötən əsrin 70-80-ci illərində ölkənin bir çox yerlərində olduğu kimi, Naxçıvan ərazisində də yol infrastrukturunun inkişafına xeyli diqqət yetirilmişdir.

XX əsrin 80-90-cı illərində yaranmış böhranlı vəziyyət, eyni zamanda Ermənistan tərəfindən Azərbaycana qarşı başladılmış ədalətsiz müharibə nəticəsində muxtar respublikanın yol infrastrukturuna da ciddi ziyan dəymiş, yeni yolların çəkilməsi, təmiri işləri, demək olar ki, tamamilə dayandırılmışdı. XX əsrin 90-cı illərinin ortalarından başlayaraq inkişaf və tərəqqi yoluna qədəm qoyan Naxçıvanda digər sahələr kimi, yol infrastrukturunun qurulmasına da xüsusi diqqət yetirilmiş, son illərdə muxtar respublika ərazisində yolların çəkilişi, yenidən qurulması istiqamətində irimiqyaslı işlər həyata keçirilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin “Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir” fikrinin işığında nəinki muxtar respublika ərazisindəki magistral yollar, həttə ən ucqar kəndlərimizə gedən yollar belə, yüksək standartlara uyğun qurularaq istifadəyə verilmişdir. Qədim və Orta əsrlərdə Naxçıvan ərazisindən keçməklə Qərb və Şərq sivilizasiyalarını birləşdirən Böyük İpək Yolunun bərpası istiqamətində görülən işlər ölkəmizdə uğurla həyata keçirilən ən irimiqyaslı layihələrdən biridir. Ötən illər ərzində bu yol üzərində yerləşən 88 kilometrlik Naxçıvan-Sədərək magistralının, 8 kilometrdən artıq uzunluğa malik Naxçıvan dairəvi avtomobil yolunun, 32 kilometr uzunluğunda Naxçıvan-Culfa magistral avtomobil yolunun inşası uğurla başa çatdırılmışdır.

2012-ci ilin may ayında muxtar respublikaya səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Böyük İpək Yolunun bir hissəsi olan Naxçıvan-Culfa magistral avtomobil yolunun açılışında iştirak edərək muxtar respublikada yol infrastrukturunun yeniləşməsi istiqamətində görülən işləri yüksək qiymətləndirmiş, Naxçıvanın tranzit mərkəzə çevrilməsində əsas hədəflərdən biri olduğunu diqqətə çatdırmışdır: ***“Bu yolun açılması Naxçıvanda böyük yol-nəqliyyat layihələrinin icrasının təzahürüdür. Biz iki il bundan əvvəl Naxçıvan-Sədərək avtomobil yolunun açılışını qeyd etmişik. Gözəl, dördzolaqlı, rahat yoldur. İndi Naxçıvan-Culfa magistral yolunun açılışını qeyd edirik. ...Beləliklə, Naxçıvan tranzit mərkəzə çevrilməkdədir”.***

Sözügedən çıxışında kənd yollarının tikintisini də vacib vəzifə kimi önə çəkən ölkə Prezidenti demişdir: ***“Kənd yollarının tikintisi növbəti illərdə başa çatmalıdır. Beləliklə, həm magistral, həm dairəvi, həm də kəndləri, bütün yaşayış məntəqələrini birləşdirən yollar yüksək səviyyədə olmalıdır”.***

Dövlət başçısının 2011-ci il 2 sentyabr tarixli Sərəncamı ilə tikintisinə başlanılan, uzunluğu 39 kilometr olan Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi və uzunluğu 57 kilometr olan Çeşməbasar-Boyəhməd avtomobil yollarında yenidənqurma işləri başa çatdırılmışdır. Avtomobil nəqliyyatında yük daşınması sahəsində xidmətin səviyyəsinin daha da yaxşılaşdırılması diqqət mərkəzində saxlanılmış, 2012-ci ilin sentyabr ayında Naxçıvan şəhərində Yük Avtomobil Park Kompleksi istifadəyə verilmişdir.



Naxçıvan-Sədərək magistralı-Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi avtomobil yolu

Muxtar respublikada nəqliyyat infrastrukturunun müasir tələblərə uyğun olaraq yeniləşdirilməsi istiqamətində işlər bu gün də davam etdirilməkdədir. Cari ilin yanvar-iyun aylarında Naxçıvan-Şahbuz-Batabat, Hacıvar-Vayxır-Sirab, Şəkərabad-Hacıvar, Qıvraq-Püsyan-Xanlıqlar, Ayrınc-Qızıl Qışlaq-Güney Qışlaq və Ağbulaq-Gömür avtomobil yollarının yenidən qurulması davam etdirilmişdir. Naxçıvan şəhərinin Heydər Əliyev prospektindəki, C.Məmmədquluzadə, Ə.Əliyev və N.Tusi küçələrindəki avtomobil yolları yenidən qurulmuşdur. Şərur rayonunun Şahbulaq və Xanlıqlar, Kəngərli rayonunun Xok kəndlərinə giriş avtomobil yollarının yenidən qurulması davam etdirilir. Şərur rayonunda bir körpünün təmiri başa çatdırılmış, Şahbuz rayonunda yeddi, Şərur və Babək rayonlarının hər birində bir körpünün tikintisi, Şahbuz rayonunda bir körpünün yenidən qurulması və dörd körpünün təmiri davam etdirilməkdədir. Cari ilin ilk altı ayında müasir avtomobil yollarının çəkilişində istifadə olunması məqsədilə 2 ədəd “CAT” markalı yükləyici ekskavator və 1 ədəd “CAT” markalı vərdənə muxtar respublikaya gətirilmişdir.

Birmənalı şəkildə demək olar ki, bu gün Naxçıvan Muxtar Respublikasında mövcud olan yol infrastrukturu müasirliyi və rahatlığı baxımından nəinki ölkənin digər regionlarını, hətta həmsərhəd ölkələrin qonşu bölgələrindəki yolları da üstələyir. Təsadüfi deyil ki, Naxçıvana gələn qonaqların da burada diqqətini çəkən üç amil var: tarix və müasirliyin vəhdətinin qorunması, səliqəli şəhər və geniş yollar, insanların qonaqpərvərliyi. Bütün bu tərəqqi və inkişaf isə ulu öndər Heydər Əliyevin Azərbaycanın gələcək inkişafı naminə müəyyənləşdirdiyi BÖYÜK YOLUN nəticəsidir. Bu işıqlı YOLun ardıcıllıqla davam və inkişaf etdirilməsi üçün isə iki amil vacibdir: istək və zəhmət.

*__P.S.__ Bir neçə gün öncə dövlət xadimlərimizdən birinin çıxışında müdrik bir hadisəni eşitmişdim. Dünya üçün ən vacib kəşflərdən birini etmiş alimlərdən birindən bunu necə bacardınız, – deyə soruşduqda, alimin cavabı belə olmuşdu: “Bu kəşfi etmək üçün bir faiz istək, doxsan doqquz faiz isə zəhmət lazım idi”. Bu alim elektrik lampasının sənaye üsulu ilə istehsalını təşkil edən Tomas Alva Edison idi. Həqiqətən də, dərindən düşünəndə görürsən ki, sözün həqiqi və məcazi mənasında, zülmətdən işığa doğru hərəkət etmək üçün istək və zəhmət mühüm amillərdir. Bu gün gecələri də gündüzləri kimi işıqlı olan, nəinki günbəgün, saatbasaat, dəqiqəbədəqiqə inkişaf edən Naxçıvanda həyata keçirilən işlər də böyük SƏDAQƏTİN, böyük İSTƏYİN və böyük ZƏHMƏTİN nəticəsidir.*

Elnur KƏLBİZADƏ

# Prezident seçkiləri demokratik və şəffaf şəkildə keçiriləcək

*2 saylı Şərur Seçki Dairəsində hazırlıq işləri yüksək səviyyədə davam etdirilir*

***Şərur rayonunda iki dairə seçki komissiyası fəaliyyət göstərir: 1 saylı Şərur-Sədərək və 2 saylı Şərur seçki dairələri. Hər iki dairə üçün ayrı-ayrılıqda Şərur şəhərində zirzəmi ilə birlikdə üçmərtəbəli yeni bina ucaldılmışdır.***

Seçkilərə hazırlığın vəziyyəti ilə bağlı 2 saylı Şərur seçki dairəsi dairə seçki komissiyasının sədri Kamal Ələkbərovla həmsöhbət olduq:

– Ölkəmizdə bütün seçkilərin azad və şəffaf keçirilməsi beynəlxalq müşahidəçilərin yekun rəyində də öz əksini tapmışdır. Şübhə yoxdur ki, növbəti prezident seçkiləri də öz demokratikliyinə və obyektivliyinə görə daha yüksək qiymətə layiq görüləcək. Seçkilərlə əlaqədar aparılan hazırlıq işləri, Mərkəzi Seçki Komissiyasının beynəlxalq qurumlarla birgə keçirdiyi treninqlər belə qənaətə gəlməyə əsas verir.

Kamal Ələkbərov bildirdi ki, ölkəmizin, eləcə də muxtar respublikamızın hər yerində prezident seçkilərinə çox ciddi hazırlıq işləri görülür. 2 saylı Şərur Seçki Dairəsinin əhatə etdiyi ərazilərdə də seçicilərin əhvali-ruhiyyəsi çox yüksəkdir. Bu, hər şeydən əvvəl, onunla bağlıdır ki, rayonda aparılan genişmiqyaslı tikinti-quruculuq işləri, adamların güzəranının yüksəldilməsi, kənd təsərrüfatının, sənayenin inkişafı hər bir seçicidə nikbinlik yaratmış, ölkəmizin daha işıqlı sabahına inamı artırmışdır. Seçicilər yaxşı dərk edirlər ki, bu seçkilərdə onlar dövlətin başçısını seçir və bununla həm özlərinin, həm də ölkənin gələcək taleyini həll edirlər.

Öyrəndik ki, 2 saylı Şərur Seçki Dairəsi üzrə, sonuncu məlumata əsasən, 41 min 12 nəfər səs verəcək. Seçki gününə qədər bu rəqəm dəyişə də bilər. Ona görə də seçici siyahılarının dəqiqləşdirilməsi diqqət mərkəzində saxlanılır.

Söhbət zamanı məlum oldu ki, dairənin seçki məntəqələrinin sayı 52-dir. Seçki gününə qədər ilk dəfə səsvermədə iştirak edənlərin sayı 982 nəfərdir. İki seçicinin 100-dən yuxarı yaşı var.

Kamal Ələkbərovun dediyinə görə, seçkilərin mütəşəkkil və qanun pozuntularına yol verilmədən keçirilməsi üçün dairə və məntəqə seçki komissiyalarının üzərinə böyük məsuliyyət düşür. Odur ki, dairə və məntəqə seçki komissiyalarının üzvləri maarifləndirmə proqramı üzrə keçirilən tədbirlərə dəvət olunmuş, seçki prosesinin gedişi, sənədlərin doldurulması, seçicilərlə rəftar haqqında mütəxəssislərin məsləhətləri dinlənilmişdir. Yerlərdə məntəqə seçki komissiyaları üzvləri üçün keçirilən treninqlərdə rayonun hakimləri, prokurorluğun əməkdaşları və Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvləri çıxış etmiş, onları maraqlandıran suallara cavablandırmışlar. Belə tədbirlərin aşağı seçki komissiyası üzvləri üçün əhəmiyyəti böyükdür. Çünki komissiya üzvləri arasında elələri var ki, bu sahədə yenidir və onların seçki prosesinin gedişini mükəmməl bilmələri vacibdir. Kamal Ələkbərov məntəqə seçki komissiyalarının təlimat, qayda və izahlarla, yaddaş kitabçaları ilə təmin olunduğunu diqqətə çatdıraraq dedi ki, Mərkəzi Seçki Komissiyası tərəfindən göndərilmiş “Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlıq aparılmasına dair təlimat” xüsusi əhəmiyyət daşıyır. Çünki komissiyalarda sənədləşmə işinin səliqəli və düzgün aparılması böyük önəm kəsb edir. Seçki məntəqələri digər təlimatlarla da təmin olunmuşdur. Rayon ərazisində əhalinin gur olan yerlərində eyniölçülü lövhələr quraşdırılmışdır. Həmin lövhələrdə prezidentliyə namizədlərin təşviqat materialları yerləşdiriləcək. Namizədlərin seçicilərlə görüş keçirmələri üçün də müvafiq yerlər müəyyənləşdirilmişdir. Çalışırıq ki, dairəmizin əhatə etdiyi hər yerdə seçkilər azad, demokratik və şəffaf keçirilsin.

Seçki avadanlığı və maddi-texniki baza ilə də maraqlandıq. Məntəqələrin əksəriyyəti yeni tikilmiş binalarda yerləşir. Seçki komissiyalarının ixtiyarına geniş iş şəraiti yaradılmış otaqlar verilmişdir. Məntəqələrin 5-də veb-kameralar olacaq. Bütün məntəqə seçki komissiyalarının yerləşdiyi binalara məlumat lövhələri vurulmuşdur. Hər gün həm seçki dairəsinə, həm də məntəqə seçki komissiyalarına müraciətlər olunur. Adı seçici siyahılarında olmayanlar onlara kömək göstərilməsini xahiş edirlər. Bu məsələ dərhal yerindəcə həll olunur. Seçicilərin müraciətləri onların prezident seçkilərində mütəşəkkil iştirak etmək əhval-ruhiyyəsində olmalarından xəbər verir.

*Bəli, yerlərdə qızğın iş gedir, sistemli şəkildə məntəqələr sahmana salınır. 1 saylı Şərur şəhər seçki məntəqəsində də olduq. Məntəqə Şərur şəhər 2 nömrəli tam orta məktəbin binasında yerləşir. Məntəqənin sədri Qulu Quliyev bizi görülən işlərlə tanış etdi. Burada seçicilərin ilkin siyahıları asılmışdır. Hər gün neçə-neçə adam öz adının siyahıda olub-olmadığını dəqiqləşdirməyə gəlir. Burada 1265 nəfərin sərbəst səs verməsi üçün hər cür şərait yaradılır. 5 saylı Aşağı Aralıq, 8 saylı Sərxanlı, 9 saylı Yuxarı Aralıq, 20 saylı Qışlaqabbas, 41 saylı Yuxarı Daşarx və digər məntəqələrdə seçkilərə ciddi hazırlıq işləri görülür.*

Cəfər ƏLİYEV

# Naxçıvanın bayraqları

***Azərbaycanın milli dövlətçilik tarixində xanlıqlar dövrü vətən tarixşünaslığının mühüm mərhələsi sayılır. XVIII yüzilliyin əvvəlindən başlayaraq tarixi proseslər feodal münasibətlərinin inkişafını daha da sürətləndirdi. Belə bir tarixi yeniləşmə həmin əsrin birinci yarısının sonlarında Nadir şah (Təhmasibqulu şah) Əfşarın idarə etdiyi imperiyanın ərazisində beynəlxalq hüququn yeni subyektləri olan xanlıqların yaranmasına səbəb oldu: Araz çayından solda İrəvan, Naxçıvan, Qarabağ, Gəncə, Cavad, Şəki, Şamaxı, Quba, Salyan, Dərbənd, Bakı, Talış (Lənkəran), sağda isə Təbriz, Urmiya, Ərdəbil, Xoy, Sərab, Marağa, Maku və Qaradağ. Adlarını qeyd etdiyimiz xanlıqlar, eləcə də İlisu və Şəmşəddil sultanlıqları Səfəvilər dövlətinin tərkibində olan Qarabağ, Şirvan, Çuxursəəd və Təbriz bəylərbəyliyinin ərazisində meydana gəlmişdi. Əgər tarixə ekskurs etsək, görərik ki, dövlət aşağıdakı bazis elementləri ilə formalaşır: siyasi hakimiyyət, ərazi, iqtisadiyyat, silahlı qüvvələr, əhali, dil, ideologiya və atributlar.***

Həmin dövrdə xanlıqların dövlət atributlarını müəyyənləşdirən simvollar (rəmzlər) var idi. Buraya həm də xanın özünün hakimiyyət atributları da daxil edilirdi: 1. taxt; 2. tac; 3. hökmdar; 4. möhür və fərman; 5. qılınc; 6. pul vahidi; 7. bayraq, döyüş bayrağı (ştandart), bunçuk və tug.



Naxçıvan Kəngərlilərinin batalyonunun bayrağı – 1827-ci il



Kəngərli süvarilərinə verilən fəxri bayraq – 1830-cu il



Kəngərli süvarilərinin bayrağı – 1830-cu il



Naxçıvan bəy drujinasının bayraqları – 1854-cü il

Əlbəttə, orta əsrlərdə və sonrakı dövrlərdə dövlət atributları indikindən fərqlənirdi. Tarixi araşdırmalar göstərir ki, Azərbaycan xanlıqlarının orijinal bayraqları olmuşdur. Tarixşünaslıqda milli dövlətçilik və onun atributları ilə bağlı xeyli nəşrlər olsa da, ancaq hələ də öz həllini tapmamış məsələlər vardır. Buna əsas səbəb bayraqşünaslıq elminin – veksillogiyanın yaşının elə də çox olmamasıdır. Bu elm latınca "vexillum" sözündəndir. Qədim Romada ordu bayrağını belə adlandırırdılar.

Qərbi Avropanın bir sıra ölkələrində bayraqşünaslıq elmi "banneristika" adlanır. "Banner" alman sözüdür, azərbaycancaya tərcüməsi "bayraq" deməkdir.

Ümumiyyətlə, bayraqşünaslıq elmi XX əsrin 20-ci illərindən yaranmağa başlamışdır. Sovet hakimiyyəti illərində xanlıqların bayraqlarına düşməncəsinə münasibət bəsləndiyindən onlar itib-batmış, yaxud muzeylərin məxfi fondlarında "həbsdə qalmışlar". Azərbaycan müstəqilliyini bərpa edəndən sonra bayraqşünaslığa aid maraqlı kitablar yazılsa da, bu, qaneedici deyil. Çünki indiyədək Naxçıvan, Qarabağ, Şamaxı, Dərbənd, Quba və digər Azərbaycan xanlıqlarının dövlət bayraqları tapılmamışdır. Əsas səbəb isə elmi axtarışların ardıcıl və ciddi aparılmamasıdır. Son illərdə tarix üzrə fəlsəfə doktorları Səbuhi Əhmədovun və Pərvin Gözəlovun bayraqşünaslıq və gerbşünaslıq ("heraldika") bağlı tədqiqat əsərləri Azərbaycan tarixşünaslığında orijinallığı ilə seçilir.

P.Gözəlovun "Azərbaycan xanlıqlarının bayraqları dövlətçilik tarixinin öyrənilməsində mənbə kimi" (rus dilində, Bakı, 2010) adlı monoqrafiyasında xanlıq bayraqları tədqiq edilmişdir. Müəllif bu monoqrafiyada təəssüflə qeyd edir ki, "indiyədək Qarabağ, Naxçıvan, Şamaxı, Dərbənd, Quba xanlıqlarının bayraqlarının axtarışları aparılmamışdır".

Naxçıvan xanlığının 1747-1828-ci illərdə dövlət və döyüş bayraqlarının axtarışındayıq. Çox təəssüf ki, bəzi obyektiv və subyektiv səbəblər üzündən bu istiqamətdə axtarışlarımız ardıcıl olmadığından, hələlik, son söz deyə bilməmişik. Ancaq 1827-ci ilə aid döyüş bayrağı haqqında məlumatı elmi dövriyyəyə daxil etmişik. Bu haqda ətraflı bir az sonra.

Naxçıvan xanlığı yarandığı 1747-ci ildən etibarən feodal dövlət kimi formalaşmışdır. Bu xanlıq 1747-ci ildən 1797-ci ilədək (arada bir neçə illəri çıxmaqla) müstəqil feodal dövlət kimi Şərq ölkələrində, Rusiyada və bir sıra Avropa ölkələrində tanınmışdır. Və hər bir müstəqil Azərbaycan xanlığı kimi, Naxçıvan xanlığının da milli dövlətçiliyi təsdiqləyən atributlarının rəmzləri – simvolları olmuşdur.

Naxçıvan xanlığı I Kalbalı xanın müstəqil hakimiyyəti dövründə (1787-1797-ci illər) intibah dövrünü yaşamışdır. Hətta I Kalbalı xan xarici ölkələrdən, həmçinin qonşu xanlıqlardan gələn qonaqların rəsmi qəbulu üçün saray da tikdirmişdir. Bu məşhur saray indi də Naxçıvanda əzəmətlə dayanmaqdadır. Döyüş atlarının başlarına kaporlar bağlayan naxçıvanlı hərbçilər – Kəngərli süvariləri müharibə meydanlarına Naxçıvan xanlığına məxsus döyüş bayrağı altında getmişlər. Bəzən yazırlar ki, kapor qırmızı rəngli adi parçadır. Əşrəf ağa Kəngərliyə məxsus süvari atın başına bağlanmış kaporun fotosu bu günədək qalır. Həmin şəkildən görünür ki, kapor adicə qırmızı parça deyil. Naxçıvan xanlığının döyüşçülərinə – Kəngərli süvarilərinə məxsus olan kaporlar döyüş bayrağına bərabər tutulmuş, yüksək dəyərləndirilmiş, qorunmuşdur. Burada mifoloji və dini, həmçinin Naxçıvana məxsus etnoqrafik məsələlər vardır. Qeyd edək ki, Əşrəf ağa Kəngərli məşhur süvari generalı İsmayıl xan Naxçıvanskinin-Kəngərlinin komandirlik etdiyi süvarilərin tərkibində Bəyazid döyüşlərinin iştirakçısı olmuşdur. Yəni döyüş atlarının başlarına bağlanan kapor ona çox yaxşı məlum idi və o, ömrünün sonuna kimi kaporlu atda gəzirdi. Çox maraqlıdır: görəsən, Kəngərli süvariləri özləri kaporu necə adlandırırmışlar?!

Qayıdaq əvvəlki mətləbimizə.

Naxçıvan xanlığının işğal olunmasını biz 1828-ci ilə aid edirik. Amma Naxçıvan xanlığı Rusiyadan əvvəl 1797-ci ildə Qacarlar hakimiyyəti tərəfindən işğal olunmuş, onun müstəqilliyi əlindən alınmış, əhalisi əsir aparılmış, Naxçıvan xanlığı talan edilmişdir. Onda Naxçıvan xanlığına məxsus dövlət atributlarının rəmzləri, o cümlədən bayraqlar da qənimət kimi aparılmışdır. I Kalbalı xanın isə amansızcasına gözləri çıxarılaraq o, Ağa Məhəmməd Şah Qacarın zindanlarında dustaq kimi saxlanılmışdır. Ona görə də biz həmin illərə aid bayraqlarımızı təkcə Rusiyada yox, digər ölkələrin də muzeylərində axtarmalıyıq. Bayraqşünas alimlərin yazdıqlarından məlum olur ki, Azərbaycan xanlıqlarına məxsus döyüş bayraqları – ştandartlar ənənəvi olaraq üçbucaq formasında hazırlanırmış. Dördbucaqlı bayraqlar isə polklara məxsus bayraqlar idi.

Naxçıvan xanlığı Qacarlar dövlətindən yarımasılı olduğu 1798-1828-ci illərdə, çox güman ki, bayraqlarda Naxçıvana məxsus rəmzləri də dəyişdirmişlər. Əlbəttə, bunu tamamilə dəyişə bilməzdilər. Çünki Kəngərli süvariləri heç vaxt özgə bayrağı altında döyüşməyiblər. I Kalbalı xanın başının üzərində dalğalanan Naxçıvan xanlığının bayrağı altında Kəngərli süvariləri hətta İrəvan xanlığının müstəqilliyi uğrunda qəhrəmancasına döyüşüblər. Bu məşhur döyüş 1804-cü ilin 2 iyul-3 sentyabrında olub. İrəvan qalasında xanlıq qoşunlarının rəisi I Kalbalı xan idi. İrəvan xanı Məhəmməd xan Qacar (Dəvəli) isə I Kalbalı xanın qaynı idi. İran şahı Fətəli şah I Kalbalı xana Naxçıvanda yaşamağa icazə vermirdi.

İrəvan xanlığını həm Rusiyanın, həm də Qacarlar dövlətinin hücumlarından məharətlə qoruyan I Kalbalı xanın hünəri özgələrinin adına yazılmamalıdır. Tarixi mənbələrdən öyrənirik ki, İrəvan xanı Məhəmməd xan heç vaxt sərkərdələr sərkərdəsi I Kalbalı xanın bir sözünü iki etməmişdir. Çünki ondakı sədaqətə və döyüş məharətinə yaxşı bələd idi.Tariximizdə böyük izi olan I Kalbalı xanın heç bir mədhə ehtiyacı yoxdur. Belə bir igid hökmdarın və sərkərdənin milli süvari qoşunları olduğu kimi, döyüşçülərin başı üzərində dalğalanan, onları azadlığa səsləyən bayrağı da (ola bilsin bayraqları) hökmən var idi. Əsas məqsədimiz o bayrağın (bayraqların), heç olmazsa, təsvirini (təsvirlərini) tapmaqdır.

Bayraqların təsvirlərinin əsas mənbələri həmin dövrlərdə yazılan kitablar, xroniki ardıcıllıqla qeydə alınan gündəliklər, döyüşlərdə və diplomatik görüşlərdə çəkilən rəsm əsərləridir. Məsələn, 1810-cu ildə fransız səyyahı Q.Druvil Təbrizdə olarkən şahzadə Abbas Mirzənin qoşunlarının döyüş bayraqlarının bəzilərinin rəngli təsvirlərini yazdığı "1812-1813-cü illərdə Rusiyaya səyahət" (I-II hissə, Moskva, 1826) kitabında vermişdir.

A.P.Yermolov 1817-ci ildə Rusiyaya gedərkən Naxçıvanda I Kalbalı xanla iki dəfə görüşmüşdür. Onun diplomatik heyətində hərbi rəssamlar var idi. Onların çəkdikləri illüstrasiyalar vardır. Oryolda və Sankt-Peterburqda saxlanılır. I Kalbalı xan süvari qoşunla A.Yermolovu təntənəli qarşılamışdır. Bu qarşılanmada Naxçıvan xanlığının dövlət bayrağı olmamış deyil.

Ən mühüm və vacib mənbələrdən biri II Rusiya-İran müharibələrinin iştirakçısı, Peterburqun həmin illərdə məşhur rəssamı olan V.Maşkovun çəkdiyi şəkillər kolleksiyasıdır. Birbaşa döyüşü əks etdirən illüstrasiyalar əvəzsiz mənbələrdir. Çünki rəssam həmin an nə görübsə, çəkib. Onun 1826-1828-ci illərə aid çəkdiyi rəsm əsərləri "İzobrajeniya dostopamyatnıx sobıtiy voynı s persiyanami 1826-1827 qq." (Sankt-Peterburq, Tipoqrafiya X.Qinçe) nəşr ili göstərilməyən bu qiymətli albomun bir nüsxəsi Milli Azərbaycan Tarixi Muzeyinin nadir kitablar fondunda saxlanılır. Bu tarixi rəsm əsərlərindən biri də Abbasabad qalasının 7 iyul 1827-ci ildə təhvil verilməsidir. Bu rəsm əsərində şahzadə Abbas Mirzənin nizami polkunun iki döyüş bayrağı aydın təsvir edilmişdir. Hər iki bayraq düzbucaqlıdır. Qırmızı mahud parçanın üzərindəki rombun içərisində şir və Günəş təsvir edilmiş, bayrağın yuxarısına əl birləşdirilmişdir. Bu təsvir XIX əsrin əvvəllərində Azərbaycan xanlıqlarının əksəriyyətində, Naxçıvan və İrəvan xanlıqlarının bayraqlarında da öz əksini tapmışdı.

Burada əsas diqqətçəkən məsələ Kəngərli batalyonunun bayrağının Naxçıvan xanlığına məxsus olub-olmamasıdır. Qeyd edək ki, həmin vaxtlar Naxçıvan xanlığı asılı olsa da, mövcud idi və Kərim xan Kəngərli Abbas Mirzə tərəfindən xanlığa hakim təyin edilmişdi. Deməli, Abbasabad qalasında döyüşən Kəngərli batalyonu əvvəlcə Kərim xana, sonra isə şahzadə Abbas Mirzəyə tabe olduğundan hökmən döyüş bayraqları Naxçıvan xanlığına məxsus idi. Əks halda qoşunun hamısı Məmmədemin Qacara bir bayraq altında tabe olardı. Amma belə deyil. Rəsm əsərində Kəngərli batalyonundakı döyüşçülər döyüş bayraqlarını başları üzərinə qaldırıblar. Sonralar bu bayraqların ikisi də hərbi qənimət kimi Abbasabad qalasındakı monastrda saxlanılmışdır. 1906-cı ildə Tiflisdəki Qafqaz Hərbi-Tarix Muzeyinə aparılaraq burada eksponat kimi nümayiş etdirilmişdir. Muzeyin "Bələdçi" kitabında bayraqların hər ikisi üçbucaq şəklində, yəni döyüş bayrağı (ştandart) kimi təsvir edilmişdir (yəqin ki, rombun kəsiyi kimi). "Bələdçi" kitabında Abbasabad qalasının dəmir açarlarının da saxlanması haqqında məlumat vardır. Biz bu araşdırmalardan sonra belə qənaətə gəldik ki, I Ehsan xanın batalyonuna məxsus bayraq Naxçıvan xanlığına məxsusdur. Amma sonralar Tiflisdən hara aparıldığı məlum deyil. Bu istiqamətdə apardığımız araşdırmaların nəticələri var. Bu barədə bir az sonra.

Naxçıvan xanlığı Rusiya imperiyasına birləşdirildikdən sonra Rusiyanın Tiflisdə yerləşən Əlahiddə Qafqaz Korpusunun baş komandanı qraf İ.F.Paskeviçin təşəbbüsü ilə Azərbaycan ərazisində yerli əhalidən ibarət müsəlman süvari polkları təşkil edilməyə başlandı. Artıq bu zaman Rusiya-Türkiyə müharibəsi başlamışdı (1828-1829-cu illər). 1829-cu ilin qışında dörd müsəlman polku yaradıldı. Naxçıvan xanlığının ərazisində tərkibində 250 döyüşçü olan "Kəngərli süvariləri" adlı xüsusi dəstə yaradıldı.

Təşkil olunmuş müsəlman polkları içərisində Naxçıvan Kəngərli süvariləri tamam orijinallığı ilə seçilirdi. Çünki bu polk yalnız Kəngərli tayfasının nümayəndələrindən təşkil olunmuşdu. Onlar Qafqaz Xəttinin Tersk Kazak Qoşunlarının tərkibinə daxil edilmişdi. Kəngərli süvariləri polkunda zabitlər (bəylər, ağalar və sultanlar), unter zabitlər (naiblər və vəkillər), aşağı rütbəlilər (əsgərlər və nökərlər) hamısı Kəngərli tayfasından idi. Qafqaz müharibələrinin salnaməçisi olan V.Potto yazırdı: "Bütün bu polklar (söhbət müsəlman polklarından gedir – müəllif) milli geyimdə idilər, bir-birlərindən ancaq hündür şiş papaqlarındakı ulduzlarla seçilirdilər. Birinci polkda ulduzlar qırmızı, ikincidə ağ, üçüncüdə sarı, dördüncüdə (Kəngərlilərdə – müəllif) isə mavi rəngli idi. Polkların bayraqlarının rəngi də belə idi. Həm də bu bayraqlar Rusiya imperiyasının gerbləri bəzəyirdi..."

Rusiyanın apardığı (1828-1829-cu illər) müharibədə müsəlman polklarının göstərdiyi qəhrəmanlıqlara xatirə əlaməti olaraq Rusiya çarı 26 oktyabr 1830-cu ildə Kəngərli süvariləri polkuna da həcmcə böyük olan ipəkdən hazırlanan bayraq bağışlamışdı. Bayraqları təqdim etmək üçün Kəngərli süvarilərindən 10 bəy və 20 süvari döyüşçü Tiflisə dəvət edilir. İmperiya ordusunda təltif olunanlar içərisində çoxluq Naxçıvan Kəngərli süvarilərinin qismətinə düşmüşdü. Bayrağı Naxçıvana gətirən Kəngərli süvariləri Naxçıvanda təntənəli qarşılanmış və şəhər "Cümə" məscidində onlara xütbələr oxunmuşdu. Çar I Nikolayın təriflərlə dolu fərmanı bu cümlə ilə başlayırdı: "Bizim Kəngərli süvariləri..."

Qeyd edək ki, Kəngərli süvarilərinə verilmiş bu döyüş bayrağı Naxçıvan Qəza İdarəsində (indiki Naxçıvanşünaslıq Mərkəzi yerləşən binada) xüsusi otaqda saxlanılırmış. Əsgərlər həmişə fəxri qarovulda dayanır və bayrağın keşiyini çəkirdilər. Bu bayraq 1845-ci ildə I Ehsan xanın xahişinə əsasən, çarın icazəsi ilə Naxçıvan xanlarının sarayına aparılmışdır.

Kəngərli süvariləri özlərinə məxsus yaşıl rəngli döyüş bayrağı altında Rusiyanın apardığı Qafqaz müharibələrində döyüşmüşlər. 1837-ci ildə çar I Nikolay Nikolayev şəhərindən Odessaya, oradan da gəmi ilə Krıma gəlmiş, buradan Redut Qalaya (Suxumiyə) və Minqreliyaya, sonra isə İrəvan yaxınlığındakı Üçmüəzzinə gəlmiş və orada milli geyimdə olan Kəngərli süvarilərinin dəstəsinə heyran olduğunu gizlətməmişdi.

Ardı 4-cü səhifədə

Süvariləri təltif etmiş, mükafatlandırmış və onların şərəfinə "Qafqaz 1837-ci ildə" adlı xüsusi gümüş medal buraxdırmışdı. Sözarası deyək ki, çar I Nikolayın Naxçıvan Kəngərlilərinin paradına baxdığını əks etdirən rəsm əsəri çəkilmişdir. Bu illüstrasiyanı da axtarırıq. Kinematoqrafiyamız üçün əvəzsiz tarixi dekorasiyadır.

1846-cı ilin fevralında general-mayor I Ehsan xanın müəmmalı vəfatı Kəngərli süvarilərini müdafiəsiz qoydu. 1850-ci ildə ermənipərəst canişin knyaz M.S.Vorontsovun təklifi ilə Kəngərli süvarilərinə verilən güzəştlər ləğv edilməyə başlandı.

Kəngərli süvariləri fəaliyyətlərini 1853-cü ilədək davam etdirdilər. I Ehsan xandan sonra onun böyük oğlu ştaps-kapitan İsmayıl xan süvarilərə komandir təyin edildi. Kəngərli süvari polkunun son döyüşü 1848-ci ildə Dağıstanda Gergebil aulunun ətrafında olub.

1853-cü ildən sonra İrəvanda yaradılan bəy drujinalarının tərkibində vuruşan Kəngərli süvarilərinin hərbi hünərləri qələmə alınarsa, qalın bir cild yaranar. Bu zaman da onların daşıdıqları döyüş bayrağı olub.

Kəngərli süvarilərinə məxsus (1830-cu ildən sonra) döyüş bayraqlarından üçü hazırda Bakıda Milli Azərbaycan Tarixi Muzeyindədir.

Axtarışlarımızın nəticələrini aydınlaşdırmaq üçün yazımızın əvvəlində olan söhbətə qayıdaq.

Rusiya imperiyası Azərbaycan xanlıqlarını işğal edəndən sonra onların dövlətçilik simvollarını və xanlıqların hakimiyyət simvollarını da ləğv etmişdir. Qafqazdan hərbi yürüşlər nəticəsində "qənimət" kimi Sankt-Peterburqa toplanılan bayraqlar Carskoye Selodakı Saray Arsenalına verilmişdir.

1906-cı ilin martında Saray Arsenalı ləğv edildiyindən oradakı materiallar Sankt-Peterburqda Ermitaja, Artilleriya Tarix Muzeyinə və Tiflisdəki Qafqaz Hərbi-Tarix Muzeyinə verilmişdir.

Tədqiqatçılardan bəziləri yazırlar ki, Qarabağ, Naxçıvan, Şirvan və digər xanlıqları Rusiya işğal etmək üçün çoxlu döyüşlər aparmadığından xanlıq bayraqlarını Qafqaz Hərbi-Tarix Muzeyinə göndərməyib, Sankt-Peterburqda saxlamışdır. Bizcə, bu, o qədər də düzgün yanaşma deyil. Çünki Qafqaz Hərbi-Tarix Muzeyində Naxçıvan batalyonunun döyüş bayrağı və Abbasabad qalasının dəmir açarları 1917-ci il fevral inqilabınadək hərbi qənimət kimi nümayiş etdirilmişdir. Üstəgəl Naxçıvan xanlığı ərazisində aparılan döyüşlər çox ciddi döyüşlər olmuşdur. Sadəcə, Naxçıvan camaatının yekdilliyi, söz verib üstündə dayanmaları və Naxçıvanın başbilənlərinin – Naxçıvanın xanlarının, onların varislərinin içdikləri anda sədaqəti, cəsur hərbçilər – Kəngərli süvarilərinin vətən məhəbbəti naminə, Naxçıvanın gəlmə yadlara verilməməsi naminə, Rusiya imperiyasının hərb tarixinə qazandıqları zəfər naminə çar hökuməti Qafqazda Naxçıvana xüsusi hörmətlə yanaşmışdır. Naxçıvan xanlığına aid bayraqların Sankt-Peterburqdakı Ermitajda saxlanması haqda ümidlərimiz çoxdur. Çünki orada saxlanılan bayraqlar kolleksiyasında 5000 bayraqdan 1000-i Qafqaz müsəlmanlarına aiddir. Biz orada axtarışlar apara bilmədiyimizdən bu haqda son söz deyə bilmirik.

Naxçıvan Kəngərli süvarilərinə məxsus bayraq 1857-ci ildə Tiflis Qafqaz Hərbi Dairəsinin nəzdində olan Hərbi-Tarix Muzeyinə verilmişdir. 1883-cü ildə isə dördüncü İrəvan müsəlman polkunun və Kəngərli süvarilərinin bayraqları saxlanmaq üçün Sankt-Peterburqdakı Artilleriya Tarix Muzeyinə aparılmışdır. Hazırda həmin muzey Rusiya Federasiyasının Müdafiə Nazirliyinin nəzdində fəaliyyət göstərir. Ola bilsin ki, Qafqaz Hərbi-Tarix Muzeyində nümayiş etdirilən Naxçıvan qənimətləri də oraya aparılsın. Aldığımız bir məlumata əsasən deyə bilərik ki, Kəngərli süvarilərinə məxsus bayraq hazırda Sankt-Peterburqdakı Artilleriya Tarixi Muzeyindədir.

**1828-ci ildən sonra Naxçıvan Kəngərli süvarilərinin qəhrəmanlıq tarixi Rusiya və Azərbaycanın müştərək tarixidir. Biz tədqiqatçılar gecikdiyimiz bir məsələdə – Naxçıvan süvarilərinin 1500-cü ildən başlayaraq 1920-ci ilədək fəaliyyət tarixini dərindən tədqiq etməkdə işimizi sürətləndirməliyik. Çünki bu tariximizdə bütün əsrlərdə azərbaycanlıların qürur duyduğu milli ruh vardır. Kəngərli süvarilərinin göstərdiyi qəhrəmanlıqlar Azərbaycan tarixinin hünər səhifələrindən biridir.**

**Musa QULİYEV**
*tarix üzrə fəlsəfə doktoru*

# – Salam, mən iş üçün müraciət edirəm...

*– Buyurun, özünüz haqqında məlumat verin.*

*– Ali təhsilliyəm, hərbi xidmətdə olmuşam, ixtisasıma uyğun iş axtarıram.*

*– O zaman zəhmət olmasa, bu blankı doldurun.*

...Sonra ixtisasa və kompüter biliklərinə dair bir neçə sorğu-sual... və qiyabi olaraq ilk gəlinən nəticə: "Qeyri-kafi".

İnanıram ki, bu dialoq çoxlarına tanışdır. Elə əsl özünümüdafiə bundan sonra başlayır. Tipik və standart düşüncələrin məhsulu olan "yəqin ki, nəsə umurlar", "elə isə niyə əziyyət çəkib ali təhsil alırdım?" və yaxud "mütləq tanış lazımdır" kimi yanaşmalar təəssüf ki, gündəlik həyatımızda qarşılaşdığımız situasiyalardandır. Belələri üçün illah ki, "Həsənağanın qohumu olmaq" şərtdir. Doğrudur, mən kosmosdan gəlməmişəm, işəgötürmə ilə bağlı prosedurlarda bəzən bu cür hallarla qarşılaşan vətəndaşları da istisna etmirəm. Ancaq bu, kütləvi hal deyil və bu vəziyyət heç kimə "işsizlik baş alıb gedir" və ya "heç yerdə iş yoxdur" deməyə də əsas vermir.

İndi isə gəlin qarşımıza papaq da olmasa, dəftərdən-qələmdən bir şey qoyub fikirləşək və fikirləşdikcə də özümüz üçün cızma-qara edək. Hələlik, məşğulluq problemlərinin həlli ilə bağlı statistik rəqəmləri sadalamaq və bunları kiməsə qəbul etdirmək fikrindən uzağam. Bunları qeyd edəcəyəm, ancaq bir azdan.

Əvvəlcə başlayaq özünü həyata hazırlamaqdan. Təbii ki, hər bir gənc özünə həyatda bir yol seçir. Kimisi özünə uyğun bir peşəyə yiyələnmək, kimisi ali təhsil almaq istəyir, kimisi öz biznesini qurur və sair. Yəni hədəf müəyyənləşdirir və başlayır öz hədəfinə doğru yavaş-yavaş addımlamağa. Məqsədli olmaq həyatda hər şeyə nail olmaq deməkdir. Bu da doğrudur ki, həyatda hər kəsin alitəhsilli olması və ya hər kəsin peşə təhsili alması mümkünsüzdür. Çünki insanlar fərqli xarakter və xüsusiyyətlərə malik olduğu kimi, arzu və düşüncələr də fərqli olur. Məsələ burasındadır ki, müasir dövrdə ali təhsil almaq, sanki "dəbə" çevrilib. Mövzudan uzaqlaşmadan onu qeyd edim ki, düşüncəmizə hakim kəsilmiş bu fikirlərdən hələ də yaxa qurtara bilməmişik. Hamımız kütləvi diplom yürüşünə çıxmışıq. Nəticə də ondan ibarətdir ki, ali təhsili birtəhər başa vurub qurtardıqdan sonra "yaxşı yerdə" işləmək üçün özümüzə "haqq" qazandırır, əgər buna nail ola bilmiriksə, deyirik ki, "iş yoxdur". Mükəmməl ali təhsil almaq, öz ixtisasına uyğun bilik və bacarıqlara yiyələnmək üçün çox çalışmaq lazımdır. Keçmişdən fərqli olaraq, müasir dövrün öz tələbləri var. Diplom əldə etmək hələ tam ali təhsilə malik olmaq demək deyil. Müasir gənc həm də tələbata uyğun xarici dillərə yiyələnməli, informasiya texnologiyalarının yeniliklərinə bələd olmaqla yanaşı, ondan yetərincə istifadə etməyi, sağlam düşünüb mükəmməl qərarlar verməyi bacarmalı, daim özünü təkmilləşdirməlidir. Yəni "kamil bir palançı olmaq" istənilən dövrdə özünü doğruldub. Yetər ki, həyatda seçdiyin hədəf və o hədəfə doğru addımlamaq üçün potensialın olsun.

İndi isə keçək, necə deyərlər, ali təhsili olmayan və ya bu sahədə "bəxti gətirməyən" işaxtaranlara. Məlumat üçün deyim ki, son illərə qədər muxtar respublikada gənc əhalinin bu hissəsinin müxtəlif peşələrə yiyələnmək imkanlarının məhdud olması, həqiqətən, müəyyən çətinliklər yaradırdı. Müstəqilliyimizin bərpasından sonra ölkəmizdə müəyyən müddət peşə təhsilinə olan biganə münasibət, təbii ki, bu sahədə kadr boşluğuna gətirib çıxarır və məsələnin müsbət həlli bir çox elmi dairələrdə ciddi müzakirələrə səbəb olurdu. Bir çoxları peşə tədrisinin aktuallığını müdafiə edirdisə, digərləri, ümumiyyətlə, bunun ləğv olunmasının tərəfdarı idi. Ancaq sevindirici haldır ki, Naxçıvan Muxtar Respublikasında bu istiqamətdə atılan addımlar hazırda öz bəhrəsini verməkdədir. Naxçıvan Regional Peşə Tədris Mərkəzinin yaradılması nəinki müasir dövrün peşə tələblərinə uyğun, hətta unudulmaqda olan müxtəlif sənətkarlıq sahələrinin yaşadılmasına və bu sahədə sənətkar-kadrların hazırlanmasına da öz töhfəsini verməkdədir. Bu tədris mərkəzini bitirən məzunların çoxu indi müxtəlif istehsal müəssisələrində, özəl sektorda, mədəniyyət və xidmət sahələrində çalışırlar.

Nəzərə alaq ki, müasir dövrdə bazar iqtisadiyyatının öz tələbləri var. Dünyanın heç bir yerində "Gəl bu sənətə yiyələn, bu təhsili al, səni işlə təmin edəcəyik!" fəlsəfəsi yoxdur. Bu düşüncə var ki, işləmək üçün seçdiyin sahənin incəliklərinə bələd olmalısan. Hətta dünyanın ən tanınmış məşhur şirkətləri belə, ilkin potensialı olmayan, gələcəkdə ona heç bir yenilik verə bilməyən (təhsil səviyyəsindən asılı olmayaraq) gənc kadrlara maraq göstərmir, ona investisiya ayırmağı düşünmür. Bunu həmin şirkətlərin nizamnaməsinə uyğun işə qəbulla bağlı tərtib etdikləri prosedur qaydalardan da görmək mümkündür. İnanmayanlar bunu internet-sorğu vasitəsilə istənilən tanınmış şirkətə göndərə bilərlər. Lakin 3-5 illik iş təcrübəsinə malik olmayanların bunu etməsini məsləhət görmürəm.

Buradan belə nəticəyə gəlmək mümkündür ki, bilik və bacarığın vəhdəti işaxtaran üçün əsas amil olmalıdır: necə deyərlər, İŞ=BİLİK+BACARIQ. Əgər bu bir tamlıq təşkil etmirsə, kimisə ittiham etmək düzgün deyil.

İndi isə yazının əvvəlində qeyd etdiyim muxtar respublikada, Naxçıvan şəhəri də daxil olmaqla, rayonlar üzrə işçi kadrlara olan ehtiyaca nəzər yetirək. Əvvəlcə qeyd edim ki, bu sahə ilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti və onun rayon mərkəzləri məşğul olur. Hər il regionda əhalinin məşğulluğunun təmin edilməsində mütəmadi olaraq keçirilən əmək yarmarkaları mühüm rol oynayır. İşin məğzi ondan ibarətdir ki, rayon məşğulluq mərkəzləri tərəfindən işəgötürənlərdən boş iş yerləri haqqında məlumatlar toplanır və bu məlumatlar həmin yarmarkalarda işaxtaranlara təqdim edilir. Məsələn, ötən il Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən şəhər və rayonlarımızın hər birində 3 əmək yarmarkası keçirilib, bu yarmarkalara 380 müəssisə tərəfindən 3766 boş iş yeri çıxarılıb, 891 nəfər özünə iş yeri tapıb, 17 nəfər peşə hazırlığına göndərilib, 95 nəfər ictimai işə cəlb olunub.

2013-cü ilin ötən dövründə isə muxtar respublikanın şəhər və rayonlarının hər birində aprel, iyun, avqust aylarında olmaqla, 3 əmək yarmarkası keçirilib. Yarmarkalara 446 təşkilatdan 4326 boş iş yeri çıxarılıb, 739 nəfər işlə təmin olunub, 7 nəfər peşə hazırlığına göndərilib, 95 nəfər ictimai işlərə cəlb edilib. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində keçirilən yarmarkaya 606 iş yeri çıxarılıb, 16 nəfər işlə təmin olunub. Naxçıvan Regional Peşə-Tədris Mərkəzində 8 ay ərzində 12 peşə üzrə təşkil edilmiş hazırlıq kurslarını 121 nəfər bitirib. Onların hamısı işlə təmin edilib.

Statistik mənzərədən də aydın olur ki, əmək yarmarkalarına çıxarılan boş iş yerlərinə göndərilənlərlə bərabər, yeni kadrlara da xeyli tələbat var. Yəni keçirilən hər əmək yarmarkasında istər özəl, istərsə də dövlət müəssisələrindən tələb olunan iş yerlərinə kadr təminatı tam ödənilmir – işləmək istəyənlərə ehtiyac var!

Əmək yarmarkalarının əsas üstünlüklərindən biri də odur ki, işaxtaran vətəndaş fərdi olaraq hansısa idarə və təşkilatı gəzib iş axtarmır. Hər kəs öz sahəsinə uyğun münasib işə yönləndirilir. Yazını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2013-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında söylədiyi fikirlərlə yekunlaşdırırıq: ***"İşsizliyin aradan qaldırılması 10 il bundan əvvəl qarşıya qoyulmuş əsas vəzifələrdən biri idi. On il ərzində 1 milyon 180 min yeni iş yeri açılmışdır. Bu ilin altı ayında 55 min iş yeri yaradılmışdır. Onlardan 45 mini daimi iş yeridir. Yəni bu proses davam edir və bu da təbiidir. Çünki bizim iqtisadi siyasətlə bağlı təşəbbüslərimiz, o cümlədən Azərbaycanda aparılan sənayeləşmə siyasəti, əlbəttə ki, yeni iş yerlərinin açılmasına gətirib çıxarır".***

*İşinizin avand olması diləyi ilə...*

✍ **Səbuhi HƏSƏNOV**

# "Araz-Naxçıvan" ilk turda Tovuza gedir

Dünən birinci divizionun püşkatma mərasimi keçirilib. Mərasim AFFA-nın inzibati binasında təşkil olunub. 2013/2014-cü il mövsümündə birinci divizionda 15 klub çıxış edəcək. Onlardan 11-i ötən mövsümdə aşağı liqada mübarizə aparıb. İki klub son mövsümü premyer-liqada keçirib və son iki pilləni tutub. Eyni zamanda bir klub yaradılıb, biri fəaliyyətini bərpa edib. İştirakçıların sayı tək olduğundan hər tur bir komanda istirahət edəcək. İlk turda bu imkandan "Şəmkir" yararlanacaq.

Naxçıvanın "Araz" klubu isə ilk turu səfərdə keçirəcək. Qırmızı-ağlar Tovuzda "Turan"ın qonağı olacaqlar.

✍ **Ceyhun MƏMMƏDOV**

# *Mülkiyyətində yaşayış evi, mənzili olan vətəndaşların nəzərinə!*



Daşınmaz əmlakın icbari sığortası yanğın, zəlzələ, qasırğa, sel, daşqın, yer sürüşməsi, qaz partlayışı, elektrik naqillərində baş verən qısaqapanma, su, kanalizasiya, istilik sistemlərinin qəzası və digər hadisələr nəticəsində daşınmaz əmlakın zədələnməsi, məhv olması, yaxud hər hansı formada itkisi ilə bağlı vətəndaşlara dəyən zərərin ödənilməsinə təminat verir.

Yaşayış evləri və mənzillərin icbari sığorta məbləğləri və sığorta haqları aşağıdakı miqdarda müəyyən edilmişdir:

***1. Naxçıvan şəhəri üzrə***
– sığorta məbləği – 20000 manat
– sığorta haqqı – 40 manat

***2. Digər rayon və şəhərlər üzrə***
– sığorta məbləği – 15000 manat
– sığorta haqqı – 30 manat

Daşınmaz əmlakın icbari sığortası rayon (şəhər) Dövlət Sığorta agentliklərində aparılır.

Daşınmaz əmlakını icbari qaydada sığorta etdirməyən vətəndaşlardan xahiş olunur, onlara məxsus yaşayış evlərini, mənzilləri icbari qaydada sığorta etdirsinlər.

*Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi*
*Sizin etibarlı təminatçınızdır!*
***Əlaqə telefonları:***
***545-94-60, 545-14-58***

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Hüseynov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 3940. Sifariş № 818